www. musigi-dunya.az
www. musicacademy.edu.az
www. millikitabxana.az

## ЗНАЧЕНИЕ ТЕХНИЧЕСКИХ УПРАЖНЕНИЙ В ФОРТЕПИАННОМ ИСПОЛНИТЕЛЬСТВЕ

***Кулиева Улвийя Эльбрус кызы***

***Резюме***

Техника – это общее понятие, включающее в себя гаммы, аккорды и арпеджио, двойные ноты, октавы и другие виды исполнения. Сложность фактуры произведений композиторов разных эпох и стилей определяет овладение техническими средствами выражения музыкальной мысли как одну из актуальных задач современной педагогики. В статье рассматривается история технических упражнений, лежащих в основе фортепианного исполнительства, подробно раскрывается их сущность на основе опыта выдающихся композиторов, пианистов-педагогов.

## THE IMPORTANCE OF TECHNICAL EXERCISES IN PIANO PERFORMANCE

***Kulieva Ulviya Elbrus***

***Summury***

Technique is a general concept that includes scales, chords and arpeggios, double notes, octaves and other types of performance. The complexity of the texture of the works of composers of different eras and styles determines the mastery of technical means of expressing musical thought as one of the urgent tasks of modern pedagogy. The article discusses the history of technical exercises underlying piano performance, reveals their essence in detail based on the experien ce of outstanding composers, pianists-teachers.

***Rəyçi: baş müəllim Haqverdiyeva N.***
***GDU-nun "Musiqi fənləri" kafedrasının 26 sentyabr 2022-ci il tarixli  içlasın02 saylı protokolu***
***Daxil olma tarixi 12 oktyabr 2022-ci il***

**UOT:78.**

## SOLTAN HACIBƏYOVUN UŞAQ MUSİQİSİ VƏ MƏKTƏBLİLƏRİN MUSİQİ TƏRBİYƏSİNDƏ ONDAN İSTFADƏNİN İMKAN VƏ YOLLARI

***Şabanova Sevil Ağaəli qızı***
***Gəncə Dövlət Universiteti***
***sevashabanova62@gmail.com***

**Xülasə:***Məqalədə görkəmli Azərbaycan bəstəkarı Soltan Hacıbəyovun yaradıcılıgının yeri və uşaqların musiqi tərbiyəsində ondan istifadənin imkan və yolları araşdırılırmışdır.*

*S.Hacıbəyovun yaradıcılığı Azərbaycan musiqi mədəniyyətində özünə məxsus yer tutur. Onun  musiqisi melodikliyi və milli koloriti ilə fərqlənir. O, öz yaradıcılığında müxtəlif janrlara müraciət etmiş, musiqili  komediya, kantata, mahnı və romanslar, simfoniyalar,*

*simfonik variasiyalar, ən məşhur əsərlərindən olan "Karvan" simfonik lövhəsi, müasir mövzuda yazılmış ilk "Gülşən" baleti və.s əsərlər yaratmışdır.*

*S.Hacıbəyov uşaqlar üçün mahnıların("Oynaq topum,","Lay lay", "Bənövşə", "Bahar gəldi","Yolka","Pioner marşı") və Nizami Gəncəvinin "İskəndərnamə" əsərinin bir parçası əsasında yazılmış "İskəndər və çoban" ilk uşaq operasının müəllifidir.*

**Açar sözlər:** bəstəkar, uşaq musiqisi, musiqi tərbiyəsi, janr, əsər.

**Ключевые слова:** композитор, детская музыка, музыкальное воспитание, жанр, произведение.

**Key words:** composer,childrens musik, musical education, genre,work

"Musiqi çox ecazkar qüvyyə malik bir nemətdir. O, ətraf aləmi, xüsusilə insan təəssüratını, hiss və ideyalarını ritm və intonasiya cəhətdən mütəşəkkil səslərlə ifadə edən sənətdir,ən kütləvi incəsənət növlərindəndir. Mütəxəssislərin təbirincə desək, musiqi-qəlbin səslərlə ifadə olunmuş həyatıdır.

Musiqi səs incəsənətidir, təfəkkürün səs obrazıdır, gerçəkliyin bədii səslər vasitəsilə inikasıdır. Musiqi ən qüvvətli təsir gücünə malik incəsənət növüdür. Musiqi yüksək emosiyanal gücə malikdir, insanların hisslərinə hakim kəsilən incəsənətdir" [1, s.19].

"Musiqi sənəti, hər bir xalqın, hər bir ölkənin mədəniyyət tarixinin tərkib hissəsini təşkil edir. O, tarixən mühüm ictimai məna daşıyıb, insanın əxlaqi tərbiyyəsi, əqidə və dünyagörüşünün , estetik zövq və ideallarının formalaşmasında mühüm rol oynamış və indidə bu vəziyfəyə xidmət edir.

Musiqi nəinki şagirdlərin estetik tərbiyəsinə xidmət edir, o, həmçinin şagirdlərin əqli, fiziki və mənəvi tərbiyəsində də mühüm rol oynayır.

Musiqi dərslərində şagirdlərin musiqi mədəniyyətinin inkişafı, onlarda mənəvi-estetik hisslərin də formalaşmasına səbəb olur. Məktəblilərin musiqi yaradıcılıq qabiliyyətini inkişaf etdirməklə müəllim onlarda incəsənət əsərlərini düzgün başa düşmək və qiymətləndirmək kimi keyfiyyətlər yaradır. Musiqi tərbiyəsinin həyatla əlaqəsi, musiqi incəsənətinə marağın artırılması, onun tərbiyəvi əhəmiyyətini artırır.

Şagirdlərə müəyyən bilik, bacarıq və vərdişlər verməklə yanaşı, onlarda yaradıcılıq fəallığı yaratmaq da musiqi tərbiyəsinin əsas vəzifələrindən biridir. Yaradıcılıq qabiliyyətlərinin formalaşması və inkişaf etdirilməsi isə bilavasitə şagirdlərin mənimsədikləri biliklərlə, əldə etdikləri bacarıq və vərdişlərlə sıx əlaqədardır.

Şagirdlərin musiqi zövqlərini inkişaf etdirmək, onlarda həm milli musiqiyə, həm digər xalqların musiqisinə və eləcə də peşəkar musiqiyə həvəs və maraq oyatmaq musiqi tərbiyəsinin vəzifələrindən biridir" [2, s.15-16].

Uşaqların dinlənilməsi və ifası üçün nəzərdə tutulan musiqiyə - uşaq musiqisi deyilir. Bu musiqi müxtəlif janrlarda ola bilər: mahnı, musiqi pyesi, simfoniya, opera, balet. Uşaqlar üçün yazılmış musiqi əsərlərinin əsasını xalq nağılları, təbiət rəsmləri, heyvanat aləminin obrazları təşkil edir. Uşaqların ifası üçün yazılmış əsərlərdə onların ifaçılıq imkanları, vokal əsərlərdə səs diapazonu, səs yaratmanın xüsusiyyətləri, müxtəlif yaşlı uşaqların diksiyası və xorla oxuma vərdişləri, instrumental pyeslərdə texniki cəhətdən hazırlığı nəzərə alınır.

Ümumtəhsil məktəblərində musiqi tərbiyəsinin əsas növü musiqi fənnidir. Şagirdlər məktəbdə məhs bu fənn vasitəsi ilə Azərbaycan musiqisinin fəxri Ü.Hacıbəylinin, Q.Qarayevin, S.Hacıbəyovun, F.Əmirovun, A.Məlikovun, eləcə də xarici ölkə bəstəkarlarının ecazkar əsərləri ilə tanış olurlar.

S.Hacıbəyov Azərbaycan musiqi mədəniyyəti tarixinə istedadlı bəstəkar, pedaqoq, musiqi içtimai xadimi kimi daxil olmuşdur. Yaradıcılıq siması aydınlığı, dünya görüşü, saflığı ilə fərqlənir. S.Hacibəyov musiqidə peyzaj rəsmlərinin gözəl ustası kimi tanınır, musiqidə parlaq milli koloritli janr obrazları üstünlük təşkil edir. Öz yaradıcılığında U.Hacıbəylinin mütərəqqi ənənələrini davam etdirən S.Hacıbəyovun yaradıcılıq yolu 1930-cu illərin axırı, 1940-cı illərin əvvəlinə təsadüf edir.

S.Hacıbəyov 1919-cu ildə Şuşa şəhərində anadan olmuşdur. Şuşa şəhəri 07.05.2021 il tarixli Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin sərancamı ilə Azərbaycanın mədəniyyət paytaxtı elan edilmişdir. Bəstəkarın yetişməsində, formalaşmasında xalq musiqisinin böyük təsiri olmuşdur. Onun yaradıcılıq fəaliyyəti hələ musiqi texnikumunda oxuduğu illərdən başlayır. Bəstəkarın ilk əsəri xor və simfonik orkestr üçün yazılmış "Pioner kantatası" və "Qızıl gül" musiqili komediyasıdır. Konservatoriyada oxuduğu illərdə bəstəkar seçdiyi sənətin texnikasına daha dərindən yiyələnmək üçün müxtəlif janrlara müraciət edir. O, "İki prelüd" və fortepiano üçün sonata, "Çiçəklərin söhbəti", "Neft haqqında nəğmə" mahnılarını, "Quşcuğaz", "Tənha yelkən ağarır" romanslarını, simli kvartet, simfonik variasiyaları yazır.

1941-1945-cı il Vətən müharibəsi ilə əlaqədar S.Hacıbəyov "Döyüşçülər nəğməsi", 416-cı Taqanroq diviziyasına həsr edilmiş xalq çalğı alətləri orkestri üçün marş əsərlərini bəstələyir. 1940-cı ildə S.Hacıbəyovun birinci simfoniyasi bu dövrdə yazılmış simfoniyalar arasında mühüm yer tutur. 1945-ci ildə Türkmənistan Opera və Balet Teatrının sifarişi ilə "Kəminə və Qazı" operasını yazır. Həmin əsərin simfonik parçası "Karvan" adlanır. 1955-ci ildə əsər yenidən nəşr olunaraq müstəqil şəkildə repertuara daxil olur. 1946-ci ildə ikinci simfoniya meydana çıxır.

1950-ci ildə S.Hacıbəyov müassir mövzuda olan "Gülşən" baletini yazır. 1950-53 illərdə bir sıra xalq mahnı və muğamlarını xalq çalğı alətləri orkestrı üçün işləyir. "Sarı bülbül", "Leyla", "Qarabağ şikəstəsi" buna misaldır. Bu illərdə ən məşhur əsərlərdən biri uvertüradır. Bu əsər milli musiqidə janr simfonizmi xəttini davam etdirir. Bəstəkar Azərbaycan, rus musiqi klassiklərinin ənənələrini öz fərdi yaradıcılıq süzgəncindən keçirərək, müasir ruhlu, milli koloritli əsər yaratmağa nail olub.

1950-ci illərdə bəstəkar "Bolqar süitası" və "Çex rəqsi" əsərlərini bəstələyir. 1964-ci ildə S.Hacıbəyov ən parlaq əsərini orkestr üçün "Konsert"ini yazır. Əsər müasir musiqi dili, qeyri-adi , parlaq koloritli orkestrofkası ilə fərqlənir. Bəstəkar bir çox tamaşalara musiqi yazmışdır "Məhəbbət", "Kəndçi qız", "İnsan", "Eşq və intiqam", "Əliqulu evlənir".

S.Hacıbəyov uşaqlar üçün yazdığı əsərlərin mövzuları müxtəlifdir. Burada həm pioner həyatı həm də təbiət təsvirləri vardır. 1953-ci ildə bəstəkar 6 uşaq nəğməsi yazır: "Oynaq topum", "Laylay", "Bənövşə", "Bahar gəldi", "Yolka", "Pioner marşı".

"İskəndər və çoban" ilk uşaq operası Bakı pionerlər evinin sifarişi ilə yazılıb. Onun əsasını Nizami Gəncəvinin "İskəndarnamə" əsərinin bir parçası təşkil edir (Librettosu M.Seyidzadənindir).

Ümümtəhsil məktəblərinin "Musiqi" dərsliklərini araşdırarkən belə nəticəyə gəlmək olar ki, S.Hacıbəyovun uşaq mahnılarından O.Rəcəbov, N.Kazımov, N.Rəcəbovanın (Bakı, 2018) müəllifləri olduqları 2-ci sinif "Musiqi" dərsliyinin "Mahnı öyrənək" bölməsində M.Seyidzadə nin sözlərinə yazılmış "Oynaq topum" mahnısı, sözləri və mahnıya aid rəngli şəkil verilmişdir [4, s.48].

O.Rəcəbov, Y.Axundova , O.İmanovanın (Bakı, 2020) müəllifləri olduqları 5-ci sinif "Musiqi" dərsliyinin "Mahnı öyrənək" bölməsində M.Seyidzadənin sözlərinə yazılmış "Bənövşə" mahnısı, sözləri və mahnıya aid rəngli şəkil verilmişdir [5, s.59].

O.Rəcəbov, N.Kazimov, A.Babayevanın müəllifləri olduğu (Bakı, 2019) 8-ci sinif "Musiqi" dərsliyində M.Seyidzadənin sözlərinə yazılmış "Laylay" mahnısı və sözləri verilmişdir [6, s.41].

Azərbaycan musiqisində uşaqlar üçün səhnə əsərlərinin yaranma tarixi XX əsrin 40-cı illərindən başlayır. Dahi Nizami Gəncəvinin "İskəndarnamə" poemasının II kitabının novellaları və "İskəndər Zülqərneyn" Azərbaycan nağılı əsasında S.Hacıbəyovun tələbəlik illərində (1947) uşaqlar üçün "İskəndər və çoban" operasını yazmışdır. Opera Nizami Gəncəvinin anadan olmasının 800 illik yubileyinə həsr edilmişdir. Operanın əsas özəlliyi onunla izah edilir ki, burada uşaq operası janrına fəlsəfi məzmunlu şərq mövzusu gətirilmişdir. Bəstəkarın uşaqlar üçün yaratdığı musigidə Şərq İntibahını öz əsərlərində təcəssüm etdirən Nizami Gəncəvinin yaradıcılıq irsinə müraciət etməsi, gənc tamaşaçılarda öz vətəninin tarixi keçmişinə zəngin ədəbi irsinə maraq və məhəbbət hisslərini formalaşdırır. Librettonun müəllifi Mirhehdi Seidzadədir. Operada xalq musigisindən qaynaqlanan rəqs nömrələri uşaqların musiqi duyumunun milli zəmində inkişafına müsbət təsir göstərir. Əsərdə bədii süjetin lakonikliyi, vokal və instrumental partiyaların mürəkkəb olmaması bütövlükdə bu əsərin gənc ifaçılar üçün nəzərdə tutulmasından irəli gəlir. Bu opera dərin mənalı, sadə aydın milli ruhlu musiqisi ilə əbədi həqiqətlər haqqinda, şəxsi nöqsanların güc və qorxu hissləri ilə gizlətməyin mənasız olması haqqında fikillər irəli sürür. İlk milli uşaq operası hesab olunan "İsgəndər və çoban" operasının ilk tamaşası 1947-ci ildə olub. Əsəri M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında Bakı musiqi məktəblilırinin 100-ə yaxın şagirdi səsləndirib.

"İskəndər və çoban" operasının premyerası 1991-ci ildə BMA-nın məktəb studiyasının Uşaq Musiqi Teatrının şagirdlərinin təşəbbüsü ilə tamaşaya qoyulmuş və uğur qazanmışdır. Operanın premyarası o qədər müvəffəqiyyətlə keçmişdir ki, Dövlət Televiziyası dəfələrlə onun videoyazısını yayımlamışdır.

Məktəb-studiyanın 35 illiyi ilə əlaqədar SSRİ və Azərbaycanın xalq artisti, professor Fərhad Bədəlbəyli və əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə elmlər doktoru, professor Tərlan Seyidovun təşəbbüsü ilə Uşaq Musiqi Teatrı yenidən S.Hacıbəyovun "İskəndər və çoban" operasına müraciət etmişdir və bu premyera bəstəkarın anadan olmasının 95 illiyinə həsr olunmuşdur.

Apardığımız araşdırmalar gostərir ki, musiqi dərsliklərində S.Hacıbyovun uşaq mahnılarına az yer verilmiş, ilk milli uşaq operası "İskəndər və çoban" operası haqqında heç bir məlumat verilməmişdir.

Yaxşı olardı ki, görkəmli Azərbaycan bəstəkarı S.Hacıbəyovun yaradıcılığına, onun uşaqlar üçün yazdığı mahnılara və "İsgəndər və çoban" operasından musiqi parçalarına ümumtəhsil məktəblərinin "Musiqi" dərsliklərinin "Mahnı öyrənək" və "Musiqi dinləyək" bölmələrində geniş yer verilsin.

### *Ədəbiyyat*

1. Qurbanəliyeva S. Şəxsiyyət və musiqi. Bakı, Adiloğlu, 2010,160 s.
2. Qədimova J. Musiqinin tədrisi metodikası. Dərslik. Bakı, ADPU, 2007, 350s.
3. Rəcəbov O., Kazımov N., Rəcəbova N. Ümumtəhsil məktəblərinin II sinif üçün "Musiqi" fənni üzrə dərslik. Bakı, 2018, 55 s.
4. Rəcəbov O., Kazımov N., Axundova Y., İmanov O. Ümumtəhsil məktəblərinin V sinif üçün "Musiqi" fənni üzrə dərslik. Bakı, 2020,79 s.
5. Rəcəbov O., Kazımov N., Babayeva A., Ümumtəhsil məktəblərinin VIII sinif üçün "Musiqi" fənni üzrə dərslik. Bakı, 2019,95 s.

**Saytoqrafiya:**
1. www.musigi-dunya.az.
2. www.oxu.az
3. www.portal.azertag.az

**ПУТИ И ВОЗМОЖНОСТИ ИСПОЛЬЗОВАНИЯ ДЕТСКОЙ МУЗЫКИ С.ГАДЖИБЕКОВА В МУЗЫКАЛЬНОМ ВОСПИТАНИИ УЧАЩИХСЯ**

***Шабанова Севиль Агаали кызы***

***Резюме***

В статье рассматриваются роль и пути использования творчества Солтана Гаджибекова в музыкальном воспитании учащихся. Творчество С.Гаджибекова занимает определённое место в музыкальной культуре Азербайджана. Его музыка отличается своей мелодичностью и национальным колоритом. В своём творчестве композитор обращался к таким жанрам как музыкальная комедия, песни и романсы, симфонии, симфонические вариации. Одним из самых известных произведений композитора являются симфоническая гравюра "Карван" и написанный на современную тему балет "Гюльшан". С.Гаджибеков является автором нескольких песен для детей *("Oynaq topum,","Lay lay", "Bənövşə", "Bahar gəldi","Yolka","Pioner marşı")* в том числе детская опера «Искендер и пастух», написанная по сюжету поэмы Низами Гянджеви «Искендернаме».

**WAYS AND POSSIBILITIES OF USING CHILDRENS MUSIC BY S.HAJiIBEYOV IN THE MUSICAL EDUCATION OF STUDENTS**

***Shabanova Sevil Aqali***

***Summary***

The article examines the role and way of using Soltan Hajibeyov creativity in the musical education of students. The work of S. Hajibeyov occupies a certain place in the culture of Azerbaijan. His music is distinguished by its melodiousness and national flavor. In his work , the composer turned to such genres as musical comedy, songs and romans, symphonies, symponic variations. One of the composers most famous works is the Symphonic engraving "Karvan" and the ballet "Gulshan" written on a modern theme . S.Hajibeyov is the author of several song for children ("Oynaq topum,", "Lay lay", "Bənövşə", "Bahar gəldi","Yolka","Pioner marşı") , including the childrens opera "Iskender and the shepher ", based on the plot of Nizami Genjevis poem " İskerdername ". The use of these works by a co-composer is important in the musical education of students.

***Rəyçi: müəl. Abbasova S.***
***GDU-nun "Musiqi fənləri" kafedrasının 26 sentyabr 2022-ci il tarixli içlasın 02 saylı protokolu***
***Daxil olma tarixi 12 oktyabr 2022-ci il***